**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**_________professor C.E.Mahmudova**

# ANTİPLAGİAT HAQQINDA

# ƏSASNAMƏ

**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universitetinin Elmi Şurasının**
**_12_ sentyabr 2023-cü il tarixli iclasının**
**__01___№-li protokolu ilə təsdiq edilmişdir**

Bakı - 2023

## Ümumi müddəlar

1.Bu Əsanamə, Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il tarixli 728 saylı Fərmanı ilə təsdiq edilmiş «Elmi dərəcələrin verilməsi qaydası haqqında» və «Elmi adlar verilməsi qaydası haqqında» Əsasnamələrinə, Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli 833-IIIQ nömrəli «Təhsil» haqqında Qanununa, 14 iyun 2016-cı il tarixli 271-VQ nömrəli «Elm» haqqında Qanununa, 5 iyun 1996-cı il tarixli 115-IQ nömrəli «Müəlliflik hüququ və əlaqəli hüquqlar» haqqında Qanununa, «Strikeplagiarizm» proqram təminatının «Oxşarlıq hesabatının təfsiri üzrə Təlimatı»nın müddəalarına, Universitetin «Akademik dürüstlük siyasətinə» və Universitetin Nizamnaməsinə uyğun hazırlanmışdır.

2. «Elm» haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, «elmi plagiat - müəllifini, götürülmə mənbəyini göstərmədən başqasının əsərlərini, elmi kəşf və ixtirasını, səmərələşdirici təklifini, innovasiya məhsulunu tam və ya qismən mənimsəmək, yaxud özününkü kimi təqdim etmək» deməkdir.

3. Bu Əsasnamənin məqsədi Universitetdə yerinə yetirilən elmi fəaliyyətin nəticələrinin orijinallığını təmin etmək və onun həyata keçirilməsi prosesində elmi plagiat hallarının qarşısının alınması prosedurlarını müəyyən etməkdən ibarətdir.

## Plagiatın aşkarlanması

4. Universitetdə hazırlanan elmi-tədqiqat işlərinin orijinallığı «Strikeplagiarizm» proqram təminatı vasitəsilə yoxlanılır. Akademik və tələbə heyət üçün proqramın əlçatanlığını təmin etmək məqsədilə, Universitetin aparıcı struktur bölmələrinin «Strikeplagiarizm» proqram təminatının «İstifadəçilər» bölməsində fərdi hesabları açılır.

5. «Strikeplagiarizm» proqram təminatında «Baş administrator» qismində Elmi işlər üzrə prorektor təyin edilir.

6. «İş» - professor- müəllim heyətinin elmi və tədris-metodoki işlərini, doktorant

və magistr dissertasiyaları, elmi məqalələr, kütləvi nəşr üçün nəzərdə tutulmuş tədris-metodiki vəsaitlər və s.

7. İşin orijinallığı Elmi işlər üzrə prorektor tərəfindən təqdim edilən Arayış və sistemdən nəticələr barədə hesabatın çıxarışı ilə təsdiqlənir.

8. İşin «uyğunluğu» yalnız orijinallıq faizi ilə qiymətləndirilmir. İşin orijinallığı barədə qərarı nəticələrin tam təhlilindən sonra Elmi işlər üzrə prorektor verir. Təhlilin məqsədi mətndə tapılan uyğunluqların qanuniliyini və düzgünlüyünü qiymətləndirməkdir.

9. Orijinallığın əlavə təhlilinə ehtiyac yaranan hallarda, Elmi işlər üzrə prorektorun təqdimatına əsasən, elmi işin ixtisaslaşmasına uyğun iştirakı rektorun əmri ilə müvafiq mütəxəssislərdən ibarət olan birdəfəlik Antiplagiat Komissiyası yaradılır.

10. Eyni iş Universitetin hesabına yalnız 1 dəfə təkrar yoxlanıla bilər. Növbəti yoxlanışa zərurət yarandığı təqdirdə plagiat yoxlamasına dair xərclər müəllifin şəxsi hesabına həyata keçirilir.

11. Digər ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının professor-müəllim heyəti, elmi işçiləri, doktorant və magistrləri də elmi-tədqiqat işlərinin orijinallığını yoxlamaq üçün ADMİU-nun Elmi işlər üzrə prorektoruna müraciət edə bilərlər.

12. Plagiat arayışı - «Strikeplagiarizm» sistemində plagiat yoxlaması zamanı avtomatik rejimdə formalaşan və yoxlamanın nəticələrini əks etdirən hesabatdır. Aşağıda qeyd edilən hallar plagiat kimi qiymətləndirilir:

- müəllifliyi təsdiq edilmədən və ya mənbə göstərilmədən digər mənbələrdən materialların qismən və ya tam mənimsənilməsi;
- müvafiq durğu işarələrindən (sitatlardan) istifadə etmədən və/və ya mənbəni göstərmədən mənbəyə sitat gətirmək;
- mənbəni göstərmədən mənbənin tərcüməsi;
- müəllifə istinad etmədən başqasının ideyalarından və ya arqumentlərindən istifadə etmək;
- başqası tərəfindən yazılmış işin tam və ya qismən özünün işi kimi təqdim edilməsi;
- internetdən götürülmüş hər hansı işin/tezisin təqdim edilməsi;
- tamamlanmış hər hansı bir işin başqaları üçün orijinal ,yeni iş kimi təqdim edilməsi.

## Özünə istinadetmə

Özünə istinadetmə - müəllifin öz əsərlərində əvvəlki nəşrlərdən əldə etdiyi fikir və nəticələrdən istifadə etməsidir. Müəllifin öz mətnlərindən sitatların həcmi işin ümumi həcminə məqbul mütənasib olmalıdır.

Özünə istinadetmə:

-özünün əvvəlki işlərində təsvir olunan tədqiqatın davam etdirilməsi;

- özünün əvvəlki elmi işləri xarici dildə nəşr edildikdə;
- ümumi və ya nəzəri materiala istinad edildikdə, tədqiqat işində isə elmi problemin daha dar aspekti araşdırıldıqda;
- tədqiqatçı heç kimin əvvəllər müraciət etmədiyi unikal mövzu üzərində işlədikdə;
- müəllif ən son, müvafiq tədqiqat nəticələrini əvvəllər əldə edilmiş məlumatlarla müqayisə etdikdə;
-

**Oxşarlıq hesabatına dair əsas anlayışlar**

**Oxşarlıq hesabatına dair əsas anlayışlar «Strikeplagiarizm» proqram təminatının «Oxşarlıq hesabatının təfsiri üzrə Təlimatı»na əsasən hazırlanıb və aşağıdakı anlayışlar bütünlüklə «Təlimatın» müddəalarını əks etdirir.**

1. Oxşarlıq hesabatı yoxlanılan mətnin müstəqilliyini qiymətləndirməyə kömək edən, alınmaların sayını və onların mənbəyini göstərən sistemdir.
2. Oxşarlıq hesabatının əsas funksiyaları:
- təhlil olunan sənəddə alınmaların faizini müəyyən edən Oxşarlıq Əmsalları yaradır;
- müqayisəli məlumatlar bazasında aşkarlanan mətnlərlə oxşar fraqmentləri göstərir;
- sənəddə aşkarlanan 10 ən uzun oxşarlıqları ən uzun fraqment siyahısında göstərir;
- sənəddə aşkarlanan oxşarlıqları mənbələrə və müqayisəli məlumatlar bazalarına uyğun olaraq yerləşdirir (Universitetin Məlumatlar Bazası, Məlumatlar Bazalarının Mübadilə Proqramında toplanan mətnlərin Məlumatlar Bazası, RefBooks Məlumatlar Bazası, Hüquqi Aktların Məlumatlar Bazası və Qlobal İnternet mənbələri);
- seçilmiş alınmaların mənbəsini ayırmağa imkan yaradır (göy rənglə göstərir);
- təhlili asanlaşdıraraq sənəd üzrə hərəkət etməyə imkan yaradır.

Oxşarlıq dərəcəsini oxşarlıq mənbəyi ilə müəyyən edir:
- hər iki mətn üçün ümumi sözlərin sayı;
- təhlil olunan mətndə təqdim olunan fraqmentlərin sayı;
- təhlil olunan sənədin mənbə ilə oxşarlığının faiz dərəcəsi.

3. Əsas anlayışlar:

Oxşarlıq əmsalları digər mətnlərdə aşkarlanan oxşar fraqmentlərin faiz dərəcəsini müəyyən edir və digər mətnlərdə sözlərin sayını təhlil olunan sənəddə ümumi söz sayının nisbətini ifadə edir.

**Oxşarlıq Əmsalı 1 (OƏ1)** sənədlərin hansı hissəsində Universitetin Məlumatlar Bazasında, Məlumatlar Bazalarının Mübadilə Proqramının Məlumatlar Bazasında, RefBooks Məlumatlar Bazasında və İnternet mənbələrinin Məlumatlar Bazasında (Hüquqi Aklar Bazası istisna olmaqla) 5 və ya daha çox sözdən ibarət

ifadənin olduğunu müəyyən edir. **Oxşarlıq Əmsalı 1,** əsasən sənədlərin müəllifinin dil müstəqilliyini öyrənmək üçün istifadə olunur.

**Oxşarlıq Əmsalı 2 (OƏ2)** sənədlərin hansı hissəsində yuxarıda göstərilən məlumatlar bazalarında (Hüquqi Aklar Bazası istisna olmaqla) 25 söz və ya daha çox sözdən ibarət ifadənin olduğunu müəyyən edir. Aşkarlanan ifadələrin uzunluğuna görə Oxşarlıq Əmsalı 2 icazəsiz alınmaların aşkarlanması üçün ən yaxşı vasitədir.

**Sitatların əmsalı (Əmsal 3)**

Sitatların əmsal dəyəri təhlil edilmiş sənədin hansı hissəsinin sitata daxil olduğunu göstərir (" " işarəsi ilə başlanılır və bitirilir).

Nəzərə almaq lazımdır ki, sistem yalnız düzgün dırnaq işarəsinə alınmış sitatları nəzərə alacaq. Sistem sitatların qanuni şəkildə istifadə edilməsini təhlil etmir. Bunun üçün, antiplagiat yoxlanışları zamanı sitatlar buraxılmır. Sitatların əmsalı köməkçi vasitədir və onun hesablanmasının mexaniki xüsusiyyəti Hesabatın təhlili zamanı nəzərə alınmalıdır.

**Mətn manipulyasiyaları**

Mətndə edilən bəzi dəyişikliklər təhlilin bütün nəticələrini dəyişə bilər. Mətndə gözə görünməyən dəyişikliklər yoxlamanın nəticəsinə təsir göstərir. Sistem müəyyən texniki parametrlərə, beləliklə məhdudiyyətlərə malikdir və bu da onlardan yan keçmək istəyinə səbəb ola bilər.

Mətn manipulyasiyalarına aşağıdakılar aiddir:

- digər əlifbalarda işarələr;
- intervallar;
- mikroboşluqlar;
- ağ işarələr;
- parafraz.

**Azərbaycan Dövlət Mədəniyyət Və İncəsənət Universiteti tərəfindən müəyyən edilən «Oxşarlıq» limitinin dərəcələri (% lə)**

Doktorantura səviyyəsində hazırlanmış dissertasiyalar üzrə:

- I Oxşarlıq Əmsalı 20%-dən çox olmamalıdır;
- II Oxşarlıq Əmsalı 5%-dən çox olmamalıdır;
- III Oxşarlıq Əmsalı 25%-dən, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox olmamalıdır.

Elmi məqalələr üzrə:

- I Oxşarlıq Əmsalı 20%-dən çox olmamalıdır;
- II Oxşarlıq Əmsalı 5%-dən çox olmamalıdır;
- III Oxşarlıq Əmsalı 25%-dən, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox olmamalıdır.

Magistr dissertasiyaları üzrə

- I Oxşarlıq Əmsalı 25%-dən çox olmamalıdır;
- II Oxşarlıq Əmsalı 5%-dən çox olmamalıdır;

III Oxşarlıq Əmsalı 25%-dən, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox olmamalıdır.

Tədris-metodiki vəsaitlər (dərslik, dərs vəsaitləri, metodiki vəsaitlər, monoqrafiyalar) üzrə:

- I Oxşarlıq Əmsalı 20 %-dən çox olmamalıdır;
- II Oxşarlıq Əmsalı 5%-dən çox olmamalıdır;
- III Oxşarlıq Əmsalı 25%-dən, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox olmamalıdır.

## Orijinallığa yoxlama qaydaları

Hazırlanmış iş yoxlanma üçün sistemdə «İstifadəçi» kimi qeyd edilmiş struktur bölmələrə və yaxud birbaşa yoxlanma üçün Baş administrator-Elmi işlər üzrə prorektora elektron versiya (Word formatında) və çap versiyası ilə birlikdə təqdim edilir.

Yoxlanmanın nəticələrinə dair Oxşarlıq hesabatına keçid elektron məktub vasitəsilə işi təqdim edən şəxsə göndərilir.

Plagiat hesabatına dair qiymətləndirilməni Elmi işlər üzrə prorektor həyata keçirir və qərar qəbul edir.

Əsasnamədə təsbit edilmiş müəyyən oxşarlıq limitinə uyğun gəlməyən işlər təkrar işlənməyə göndərilir və müəyyən struktura bu barədə məlumat verilir.

Orijinallıqa dair əlavə təhlilə ehtiyac yaranan hallarda, Elmi işlər üzrə prorektorun təqdimatına əsasən, elmi işin ixtisaslaşmasına uyğun üzvlərdən rektorun əmri ilə birdəfəlik Antiplagiat Komissiyası yaradılır və qərar qəbul edilir.

Doktorantura səviyyəsində hazırlanmış dissertasiyalar üzrə plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda zəruri dəyişikliklərin edilməsi üçün 1 (bir) aya qədər vaxt verilir:

- I oxşarlıq əmsalı 20%-dən çox və 50%-dək olduqda;
- II oxşarlıq əmsalı 5%-dən çox və 10%-dək olduqda;
- III oxşarlıq əmsalı 25%-dən çox və 50%-dək olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox və 300-dək olduqda.

Doktorantura səviyyəsində hazırlanmış dissertasiyalar üzrə plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda təkrar plagiat yoxlanması aparılmır və həmin iş cari ildə müdafiəyə buraxılmır:

- I oxşarlıq əmsalı 50%-dən çox olduqda;
- II oxşarlıq əmsalı 10%-dən çox olduqda;
- III oxşarlıq əmsalı 50%-dən çox olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 300-dən çox olduqda.

Elmi məqalələrin plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda zəruri dəyişikliklərin edilməsi üçün 10 (on) günə qədər vaxt verilir:

- I oxşarlıq əmsalı 20%-dən çox və 50%-dək olduqda;
- II oxşarlıq əmsalı 5%-dən çox və 10%-dək olduqda;

- III oxşarlıq əmsalı 25%-dən çox və 50%-dək olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox və 300-dək olduqda.

Elmi məqalələrin plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda məqalə nəşr üçün rədd edilir:

- I oxşarlıq əmsalı 50%-dən çox olduqda;
- II oxşarlıq əmsalı 10%-dən çox olduqda;
- III oxşarlıq əmsalı 50%-dən çox olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 300-dən çox olduqda.

Magistr dissertasiyaları üzrə plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda zəruri dəyişikliklərin edilməsi üçün 25 (iyirmi beş) günə qədər vaxt verilir:

- I oxşarlıq əmsalı 25%-dən çox və 50%-dək olduqda;
- II oxşarlıq əmsalı 5%-dən çox və 10%-dək olduqda;
- III oxşarlıq əmsalı 25%-dən çox və 50%-dək olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox və 300-dək olduqda.

Magistr dissertasiyaları üzrə plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda təkrar plagiat yoxlanması aparılmır və həmin iş cari ildə müdafiəyə buraxılmır:

- I oxşarlıq əmsalı 50%-dən çox olduqda;
- II oxşarlıq əmsalı 10%-dən çox olduqda;
- III oxşarlıq əmsalı 50%-dən çox olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 300-dən çox olduqda.

Tədris-metodiki vəsaitlərinin plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda zəruri dəyişikliklərin edilməsi üçün 1 (bir) aya qədər vaxt verilir:

- I oxşarlıq əmsalı 20%-dən çox və 50%-dək olduqda;
- II oxşarlıq əmsalı 5%-dən çox və 10%-dək olduqda;
- III oxşarlıq əmsalı 25%-dən çox və 50%-dək olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 100-dən çox və 300-dək olduqda.

Tədris-metodiki vəsaitlərinin plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda təkrar plagiat yoxlanması aparılmır və cari ildə onların nəşri məsələsinə bir daha baxılmır:

- I oxşarlıq əmsalı 50%-dən çox olduqda;
- II oxşarlıq əmsalı 10%-dən çox olduqda;
- III oxşarlıq əmsalı 50%-dən çox olduqda, manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) sayı 300-dən çox olduqda.

## Apelyasiya qaydaları

Müəllif və yaxud digər maraqlı şəxs təsdiqlənmiş qərar ilə razılaşmadığı halda qərarın açıqlanmasından sonra maksimum 3 iş günü ərzində Elmi işlər üzrə prorektora mübahisənin həlli məqsədi ilə ərizə ilə müraciət etmək hüququna malikdir.

Prorektor mübahisənin həlli məqsədi ilə Apelyasiya Komissiyasının

yaradılması barədə rektora yazılı təqdimatla müraciət edir və rektorun əmri ilə Komissiya yaradılır.

Apelyasiya Komissiyası 7 iş günü ərzində müraciətə baxır, qərar qəbul edir. Komissiya aşağıdakı qərarları qəbul edə bilər:

1. İşi qəbul etmək;
2. Düzəliş üçün geri qaytarmaq;
3. Diskvalifikasiya etmək.

Eyni iş üzrə Apelyasiya müraciəti yalnız bir dəfə verilə bilər.